**АЗЯРБАЙЪАН РЕСПУБЛИКАСЫ ТЯЩСИЛ НАЗИРЛИЙИ**

**БАКЫ ДЮВЛЯТ УНИВЕРСИТЕТИ**

**BAKALAVR PILLƏSI ÜÇÜN**

# « ÇININ İQTİSADİYYATI » fənnindən

# P R O Q R A M

**AzərbaycanRespublikası**
**TəhsilNazirliyinin**
**21 avgust 2015 – ci iltarixli**
**887 saylıəmriilətəsdiqedilmişdir**

**B A K I – 2 0 1 5**

**Tərtib edən: dos.** **Umudova R. İ.**

**Elmi redaktor:** **dos. Soltanova H. B.**

**Rəy verənlər:** **dos. Nağıyev S. Q. – “Azərbaycan coğrafiyası və tədrisi metodikası”**

**c.e.n. Zakiriyayeva baş elmi işçisi-AMEA akad. H. Ə. Əliyev adına Coğrafiya institutu**

Ön söz

"Çin iqtisadiyyatı" fənni Şərqşünaslıq fakültəsinin əyani şöbə tələbələrinə tədris edilir. Fənn tədris planına uyğun olaraq 60 saat həcmində (mühazirə  s., məşğələ 30 s.) keçirilir.

Fənnin öyrədilməsində məqsəd tələbələrə ölkənin iqtisadi, sosial və siyasi xüsusiyyətlərini dərk etməkdə nəzəri kömək göstərməkdir.
Fənnin mənimsənilməsi nəticəsində tələbələr bilməlidir:

- Çin iqtisadiyyatının əsas xüsusiyyətləri
- Çin iqtisaddiyyatının tarixi inkişaf mərhələləri
- Çində iqtisadiyyatın təşkili formaları
- Çində yanacaq-energetika Metallurgiya, Maşınqayırma və s. iqtisadi sahələrinin iqtisadiyyatı
- Çinin regional-iqtisadi siyasəti və s.

Bacarmalıdır:
- Çin iqtisadiyyatının inkişaf modellərini fərqləndirməyi
- Çinin xarici iqtisadi əlaqələrini ölkələr üzrə qruplaşdırmağı
- Çində azad- iqtisadi zonaları fəaliyyət növlərinə görə qruplaşdırmağı və s.

**Yiyələnməlidir:**
- Çində təsərrüfat sahələrinin ərazi üzrə yerləşdirmə yollarına
- Çinin əmək ehtiyatlarının təsərrüfatda yerləşdirmə bacarıqlarına
- Çinin regional iqtisadi siyasətinə və s.

Mövzuların saatlar üzrə bölüşdürülməsi

| | | Müh. | Məş. |
|---|---|---|---|
| 1. | Fənnin predmeti, məqsəd və vəzifələri | 2 | 2 |
| 2. | Çin iqtisadiyyatının inkişaf xüsusiyyətləri | 2 | 2 |
| 3. | Çində azad iqtisadi zonalar | 2 | 2 |

| | | | |
|---|---|---|---|
| 4. | Çinin iqtisadi inkişaf modeli | 2 | 2 |
| 5. | Çinin yanacaq-energetika sənayesinin iqtisadiyyatı | 2 | 2 |
| 6. | Çinin metallurgiya sənayesinin iqtisadiyyatı | 2 | 2 |
| 7. | Çinin maşınqayırma sənayesinin iqtisadiyyatı | 2 | 2 |
| 8. | Çinin kimya və neft-kimya sənaye sahələrinin iqtisadiyyatı | 2 | 2 |
| 9. | Çinin yüngül və yeyinti sənaye sahələrinin iqtisadiyyatı | 2 | 2 |
| 10. | Çinin kənd təsərrüfatının iqtisadiyyatı | 2 | 2 |
| 11. | Çinin nəqliyyat sisteminin iqtisadiyyatı | 2 | 2 |
| 12. | Çinin xarici iqtisadi əlaqələri | 2 | 2 |
| 13. | Çinin turizm industriyası | 2 | 2 |
| 14. | Çinin maliyyə-kredi tsistemi | 2 | 2 |
| 15. | Çinin regional iqtisadi siyasəti | 2 | 2 |
| Cəmi: | | 30 | 30 |

**Mövzu 1. Fənnin predmeti, məqsəd və vəzifələri**
Fənnin məqsəd və vəzifələri. Öyrənilmə istiqamətləri.
**Mövzu 2. Çin iqtisadiyyatının inkişaf xüsusiyyətləri**
Çinin iqtisadi strategiyası. İqtisadi islahatlar və onların nəticələri. Bazar iqtisadiyyatına keçidin yeni isyiqaməti, dünya bazarına inteqrasiyası. Xarici iqrisadi sahədə açıq qapılar siyasəti. Milli iqtisadiyyatda xüsusi mülkiyyət formalarının payının artması. Elmi-texniki tərəqqinin tezləşdirilməsi. İqtisdiyyatın intensiv inkişaf yoluna keçməsi.
**Mövzu 3. Çində azad iqtisadi zonalar.**
Xüsusi iqtisadi zonaların və açıq iqtisadi rayonların yaradılması. "Açıq sahilyanı qurşağın" formalaşması. Mühüm azad iqtisadi zonalar. Xarici kapitalın cəlb edilməsi. Çinin geridə qalmış daxili və xeyli inkişaf etmiş rayoları arasında fərqin aradan qaldırılması.

**Mövzu 4. Çinin iqtisadi inkişaf modeli**
Yüksək inkişaf tempinin səbəbi.Çinin iqtisadi inkişafının dinamikası. İqtisadi inkişafın "mühərriki". İqtisadi inkişafın ekstensiv səciyyəsi. Çin iqtisadiyyatının səmərəliyinin qiymətləndirilməsi. İqtisadiyyatın inkişaf konsepsiyası. Əhəmiyyətlilik dərəcələrinə görə milli təsərrüfatın sahələri: kənd təsərrüfatı, baza sahələr, dayaq sahələr. İqtisadi inkişafın yeni modeli.

**Mövzu 5. Çin iqtisadiyyatının yanacaq energetika sənayesi**
Daş kömür sənayesi. Kömür hasilatının dünya əhəmiyyəti. Çin Asiyada neftin ən mühüm istehsalçısı kimi. Daş kömürün istehsal rayonları. İri daş kömür höbzələri. Daxili tələbata sərf olunan yanacaq xammalı. Çin dövlət sektoru və xarici şirkətləri tərəfindən karbohidrogen xammalının kəşfi və istehsalının həcmi. Enerji daşıyıcıları və elektrik enerjisinin əsas mənbələri. Elektroenerji istehlasalının həcmi. HES və İES -ında elektrik enerjisi istehsalının payı. AES-larının inşası. Özünün alternativ enerji mənbələrinə meyı göstərməsi (su ehtiyatları, təbii qaz, geotermal, günəş enerjisi, külək enerjisi, bioloji enerji mənbəyi).

**Mövzu 6. Çinin metallurgiya sənayesinin iqtisadiyyatı**
Yerli yanacaq və mineral xammalla sənayenin təminatı. Qara və əlvan metallurgiya. Qara metal istehsalının dəmir filizi və daş kömür rayonlarında cəmlənməsi. Mis və polad əridilməsi. Alüminium və əlvan metalların istehsal müəssisələri. Qara metallurgiyanın ərazi üzrə paylanması iri müəssisələri. Sənayenin strukturunda metallurgiyanın xüsusi çəkisi.

**Mövzu 7. Çinin maşınqayırma sənayesinin iqtisadiyyatı.**
Maşınqayırma müəssisələri, maşınqayırma kompleksi, maşınqayırma sahəsinin əsas mərkəzləri. Maşınyığma müəssisələrinin müxtəlifliyi. Aparıcı sahələr. Gəmiqayırma, avtomobilqayırma, elektrotexnika avadanlığı, təyyarəqayırma, hərbi maşınqayırma, məişət avadanlığı istehsalı. Biomühəndislik, kosmos, informatika, lazer optikası, avtomatlaşma, ən yeni materialların istehsalı sahələrində yüksək texnologiyaların

inkişafı. Maşınqayırmanın xammal bazası. Sənaye xammalınına dövlət nəzarəti. Əsas metal filizlərinin istehsalı və əridilməsi. Kənd təsərrüfatı maşınqayırması sahələrinin inkişafı.

**Mövzu 8. Çinin kimya və neft-kimya sənayesinin iqtisadiyyatı.**

Sənaye istehsalının ümumi həcmində kimya sənayesinin payı. İstehsal olunan məhsulun çoxsahəli səciyyəsi. Kimya sənayesinin ixracat istiqamətində inkişaf etdirilməsi. Kimya sənayesində müəssisələrin böyüklüyünə görə reytinqi. Mineral gübrələrin istehsalı. İstehsal olunan məhsulların geniş çeşidi. Rezin-texniki məhsullar: ayaqqabı, avtomobil şinləri, kameralar. Əczaçılıq kimya sənayesinin sahələrindən biri kimi. Kimya sənayesinin neft–emal və neft məhsulları sahələri.

**Mövzu 9. Çinin yüngül və yeyinti sənaye sahələrinin iqtisadiyyatı.**

Yüngül sənaye Çinin ənənəvi sahəsi kimi. Ölkə iqtisadiyyatında yüngül sənayenin aparıcı rolunun saxlanılması. Yüngül sənaye sahələrinin ayrı-ayrı rayonlarda cəmləşməsinin üstünlükləri. Xammal, pambıq, əkinçilik və heyvandarlıq məhsullarının emalı müəssisələrin şərq, şimal, mərkəz və cənub rayonlarında cəmləşməsi. Ölkədə yüngül sənaye müəssisələrinin çoxluğu. Yüngül sənaye məhsulları istehsalı üzrə dövlət və özəl müəssisələr. Yeyinti sənayesi ölkə iqtisadiyyatında aparıcı kimi. Yeyinti sənayesi sahələrinin ayrı-ayrı rayonlarda yerləşdirilməsi. Heyvandarlıq və əkinçilik xammalı emalı müəssisələrinin ərazi üzrə yerləşdirilməsi. Ət emalı, un emalı, şəkər və digər istiqamətlər üzrə müəssisələr. Yeyinti məhsullarının istehsalı üzrə dövlət və özəl sektora məxsus müəssisələr. Ət-süd emalı, yağ-piy, çay, konserv, tütün və s. istehsalı aparıcı sahələri kimi.

**Mövzu 10. Çinin kənd təsərrüfatının iqtisadiyyatı**

Ümumi istehsalın strukturu və milli gəlirində kənd təsərrüfatının payı. İqtisadiyyatın baza sahəsi və yüngül sənaye üçün xammal təchizatçısı kimi kənd təsərrüfatının əhəmiyyəti. Kənd təsərrüfatı məhsulları istehsalının miqyası. Əkin sahələri, onların daimi

çatışmazlığı. Bitkiçiliyə yararlı rayonlar. Bitkiçilikdə ənənəvi istiqamət. Buğda, çəltik, düyü, danıq, qarğıdalı, qaolyan, kökümeyvəlilər və soya becərilməsi. Texniki bitkilərin xüsusi çəkisi: zeytun, pambıq, çay, yerfındığı, raps, küncüt, tərəvəz və meyvələr. Heyvandarlığın nisbətəb az əhəmiyyətli olması. Heyvandarlığın əsas sahələri. Heyvandarlığın inkişafının xarakterik xüsusiyyətləri: iş heyvanlarının yüksək inkişafı və südlük heyvandarlığın zəif inkişafı. Meşəçilik üzrə baza yaradılması. Kəndlərdə iqtisadi siyasətin aparılmasının əsas istiqamətləri. ASK və məhsuldarlığın inkişafı üçün görülən tədbirlər. Süni suvarma həlledici tədbirlərdən biri kimi. Torpaq ehtiyatlarının qiymətləndirilməsi. İrriqasiyanın əhəmiyyəti, su ilə təminat. Ölkənin əsas əkinçilik rayonları. Suvarılan bitkilərin müxtəlifliyi, yayılma arealı.
Dənli bitkilər və çəltikçilik, tərəvəzçilik, baxçılıq, paxlalılar, sitrus, və texniki bitkilərin ölkə iqtisadiyyatında rolu. Suvarılan bitkilərin ixracat əhəmiyyəti. Əkinçilik sahəsində kənd təsərrüfatı istehsalının yüksəldilməsi strategiyası. Heyvandarlığın ÜMM də payı. Bitkiçilik və heyvandarğın inkişaf templəri arasında fərqlər.
Təbii otlaqların mövcudluğu. Heyvandarlıq məhsulları sənaye xammalı kimi. Əsas heyvandarlıq rayonları və ixtisaslaşma istiqamətləri. Quşçuluq, balıqçılıq, su təsərrüfatı. İpəkçilik qədim ənənəvi sahələrdən biri kimi.

**Mövzu 11. Çinin nəqliyyat sisteminin iqtisadiyyatı**

Çinin mürəkkəb təsərrüfatı mexanizmində nəqliyyat mühüm sistem kimi. Kompleks nəqliyyat sisteminin inkişafı. Ayrı-ayrı nəqliyyat növlərinin ümumi yük dövriyyəsində xüsusi çəkisi. Ölkənin ayrı-ayrı rayonlarının nəqliyyat ilə təchizatı. Müasir avadanlıqla təminat. Dəmiryolu nəqliyyatı. Sərnişin və yük dövriyyəsində dəmiryolu nəqliyyatının xüsusi çəkisi. Avtomobil nəqliyyatı, yolların tərkibi və uzunluğu. Dəniz nəqliyyatı. Çay nəqliyyatı. Əsas limanlar. İri dəniz limanlarının bərpası və modernləşdirilməsi. Beynəlxalq əhəmiyyətli hava limanları. Boru-kəmər nəqliyyatı.

**Mövzu 12. Çinin xarici iqtisadi əlaqələri.** Digər ölkələrlə ticarət-iqtisadi tərəfdaşlıq. İdxal və ixrac məhsulları. Çinin dünya ticarətində xüsusi çəkisi. Çinin ticarət dövriyyəsi və ticarət balansı. Malların ixracının strukturu və coğrafiyası. İdxalın strukturu və coğrafiyası.

**Mövzu 13. Çininturizmindustriyası.**

Çinin çoxəsrlik turizm tarixi. Orta əsrlərin qapalılığı və Çin sivilizasiyasının uzunmüddətli təcrid halında olması. Çinin yarımmüstəmləkə vəziyyəti və onun maraqlarının qərb dövlətlərinin turizmin inkişafına onun maraqlarının qərb dövlətlərinə tabe olması. Turizmin yaradılması və orada baş verən ayrı-ayrı tarixi hadisələrin bu sahəyə təsiri. Turistlərə xidmət üzrə ilk dövlət müəssisələrinin yaradılması. 1970-ci illərin iqtisadi islahatları və Çinin xarici dünyaya inteqrasiyası. İqtisadi islahatların başlanğıcı və turizmin hərtərəfli inkişafı.

Mədəniyyət abidələrinin mühafizəsi üzrə qanunların qəbul edilməsi, tarixi-mədəni mərkəzlərin elan olunması. Füsunkar təbii landşaftlı ərazilərin dövlət təbii görməli rayonlarına qatılması. Dünya mədəni irs abidələri. Mühüm turizm mərkəzləri. Turizm industriyasının dövlət xalq təsərrüfatının inkişaf planına rəsmi daxil edilməsi. Çində müasir turizm xüsusiyyətləri. Xidmət sahələrinin inkişafı. Turizm üzrə əməkdaşlığın coğrafiyası. Çinin məşhur turizm obyektləri. Əsas turizm marşrutları. Müxtəlif nəqliyyat növlərindən turizm məqsədilə istifadəsi.

**Mövzu 14. Çinin maliyyə-kredit sistemi**

Planlı iqtisadiyyat çərçivəsində maliyyə və vergi siyasəti. Maliyyə mərkəzləşməsinin dayandırılması. Maliyyə siyasətinin müxtəlif formalarını nəzərdə tutan maliyyə islahatlarının keçirilməsi. Regionlarda maliyyə resurslarını müstəqil idarəetmə imkanı. Vergiqoymada yeni maliyyə sistemi. Dövlətin maliyyə gəlirləri. Dövlətin qiymətli kağızlar qoyuluşunun artması. Maliyyə Nəzarəti Kontorunun yaradılması. Dövlət kommersiya banklarının əhəmiyyəti. Maliyyə sahəsində aşkarlıq. Maliyyə sahəsində aşkarlığın xarici dünyaya yayılması və inkişafı. Kommersiya

məqsədilə xarici maliyyə-kredit strukturları idarələrinin yaradılması. Milli məzənnə kursu. Əhalinin borcları həcmi, kredit əmanətlərini. zəmanətləri/öhdəlikləri. Dövlətin valyuta ehtiyatı.

**Mövzu 15. Çinin regional iqtisadi siyasəti**

Müxtəlif inkişaf səciyyəsinə malik olan ayrı-ayrı regionların formalaşması. İqtisadi və sosial inkişafın uzunmüddətli dövlət proqramı. İqtisadiyyatın intensiv inkişafa malik perspektiv rayonlarının formalaşması. İntensiv inkişafa malik 10 regionun inkişaf proqramı və sonrakı perspektivləri:

- Yantszı deltası rayonu
- Cjutszya rayonu
- Boxay körfəzi dairəsi rayonu
- Xarbin-Çançun rayonu
- Mərkəzi Xuanşi olan rayon
- Çendu-Çunsin rayonu
- Quancjou rayonu
- Bakbo körfəzi rayonu
- Xuanxedən yuxarıda olan rayon.

**Fərdi iş mövzuları**

1.Çinin iqtisadiyyatının sahələrinin inkişafının əsas istiqamətləri

2.Xarici iqtisadi sahədə Çinin açıq siyasəti

3. Çinin fərdi regionlarının inkişaf səviyyəsinin fərqlərinin aradan qaldırılması

4. Çinin əsas enerji mənbələri və energetikası

5. Çinin ənənəvi yüngül sənaye iqtisadiyyatı

6. Çində əsas maşınqayırma müəssisələri

7. Çinin ənənəvi kənd təsərrüfat istiqamətləri

8. Azərbaycan Çin münasibətləri

9. Çinin maliyyə-kredit sistemi

10. Çinin xarici iqtisadi əlaqələri

## Ədəbiyyat siyahısı:

1. Alisov N.B., Xorev B.S. - Dünyanın sosial-iqtisadi coğrafiyası (ümumi baxış). "Qardariki" 2002.
2. Vokruq sveta - ilk milli informasiya jurnalı (Çin Xalq Respublikasına həsr olunmuş buraxılış), N. 8, 2006
3. Coğrafiya ensiklopediyası I-II kitab, Bakı "Çaşıpğlu Multimediya" 2012, 368 səh.
4. Gərayzadə T.P. - Xarici ölkələrin iqtisadi və sosial coğrafiyası (dərs vəsaiti). Bakı, 2000.
5. Səmədzadı Ziyad. Çin qlobal dünya iqtisadiyyatında. Bakı, Elm və təhsil, 2009. 608 səh.
6. Soltanova H.B. və b. Dünyanın iqtisadi və sosial coğrafiyası. Bakı, "Sabah", 2012, 538 səh.
7. Çin qlobal dünya iqtisadiyyatında. Bakı, "Elm və təhsil", 2009, 608 səh.
8. Китай глазами иностранцев - Краткие сведения о Китае.